AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə:104-114
https://doi.org/10.59849/2664-5432.2026.2.104

Fizuli MUSTAFAYEV*

KİNO DİLİNDƏ ÇIXIŞLIQ HALLI FEİLİ BİRLƏŞMƏLƏR HAQQINDA

XÜLASƏ

Məqalə kino dilində çıxışlıq hallı feili birləşmələrə həsr olunub. Feili birləşmələrin çıxışlıq hallı feili formasını daşıyan bu növü özünəməxsus xüsusiyyətlərə malikdir. Bu birləşmələrin başqa feili birləşmələrdən həm formal fərqi, həm də ümumi məna fərqi onun birinci tərəfi ilə bağlıdır.

Aparılan tədqiqatlara görə çıxışlıq hallı feili birləşmələrin ikinci tərəfi də çox müxtəlif feili qrupları ilə ifadə olunur. Feilin təsirli və təsirsiz olması, dinamik və statik xüsusiyyəti, mənaca bu və ya digər növə düşməsi onun bu birləşmələrin ikinci komponenti olması imkanını məhdudlaşdırmır.

Məqalədə kifayət qədər ədəbiyyat və kino-filmlərdən istifadə edilmişdir.

Açar sözlər: *çıxışlıq halı, feili birləşmələr, feil növü, hal sistemi, birinci tərəf, ikinci tərəf*

Feili birləşmələrin çıxışlıq hallı feil formasını daşıyan bu növü özünəməxsus xüsusiyyətlərə malikdir. Bu birləşmələrin başqa feili birləşmələrdən həm formal fərqi, həm də ümumi məna fərqi onun birinci tərəfi ilə bağlıdır. Çıxışlıq hal hər şeydən əvvəl kənarlaşmaq ideyası ifadə edir. Yəni hərəkət üçün çıxış nöqtəsi olan məkanı göstərir. Başqa sözlə desək, çıxışlıq hal hərəkətin başlanğıc mərhələsini ifadə edir.

***

N.K.Dmitriyevin fikrinə görə ismin çıxışlıq halı başqa hallara nisbətən gec formalaşmışdır. Çıxışlıq halı VIII əsr Orxon-Yenisey yazılarında olmamış və onun mənasında yerlik hal işlənmişdir. Bu hal sonralar, klassik uyğur ədəbiyyatı dövründə meydana gəlmişdir" [Дмитриев: 1960, s.61]. Buna baxmayaraq ismin çıxışlıq halının özünəməxsus xüsusiyyətləri, işlənmə mövqeyi və rolu vardır. Türk dillərinin, eləcə də Azərbaycan dilinin indiki səviyyəsində çıxışlıq halsız ötüşmək mümkün deyildir. Çıxışlıq halın o qədər məna xüsusiyyətləri əmələ gəlmişdir ki, onları başqa hallarla ifadə etmək qeyri mümkündür.

Kino dilində ismin çıxışlıq halı ilə əlaqələnə bilməyən və ya təsadüfi hallarda onunla əlaqələnə bilən feillər çox azdır. Buna görə də çıxışlıq hallı feili birləşmələrin ikinci tərəfi də çox müxtəlif feili qrupları ilə ifadə olunur.

1. Birinci tərəfi məkani hallarla ifadə olunana başqa feili birləşmələrdə olduğu kimi, bu birləşmələrdə də məkan əlaqəsi əsas yer tutur: burada birinci tərəf

*AMEA Nəsimi adına Dilçilik İnstitutunun Tətbiqi dilçilik şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru. Email:mustafayev.fizuli8@gmail.com

hərəkətin başlandığı yeri, geniş sahədə hərəkətin başlanğıc nöqtəsini bildirir. Bu birləşmələrin birinci tərəfi məkan bildirən sözlərlə, ikinci tərəfləri isə, bir qayda olaraq, hərəkət və iş feilləri ilə ifadə olunur.

a) Bəzi filmlərdə birinci tərəf hərəkətin müəyyən məkan daxilindən başlayaraq kənara doğru istiqamət aldığını göstərir. Belə birləşmələrin ikinci tərəfləri *getmək, çıxmaq, gəlmək, köçmək, qaçmaq* və s. kimi feillərlə ifadə olunur.

"Şəlabığlı kişi: – Ay balam, mən sənə beş dənə beşlik vermədim?

Kişmiş satan: – Verdin.

– Atan oldu rəhmətlik. Beş dənə beşliyin otuz manat eləmir balam?

– Ay dayı otuz *manatdan danışmaq* xoşuna gəlir? Beş dənə beşlik eləyər iyirmi beş manat... lap özün öldürsə, eləsin iyirmi altı manat... Otuz manat ələməz axı!

– İyirmi altı ələyər. Neynək... Atan oldu rəhmətlik. Al bu dörd manatı da, olsun otuz... Vəssalam!" ["Yuxu"].

"Kapitan: – "Nə bilim kim? *Səndən danışmaq*. Lap həkim kimi danışırsan. Bilsəydim daha səni niyə çağırırdım. Özüm tutub dərsini verərdim də..." ["Kapitanın xəzinəsi"].

"Qoca: – Bəs Əzim kimdir?

Buta: – Mənimlə bir sinifdə oxuyur. *Dərsdən çıxmış* uşaqlarla məni döydülər" ["Buta"].

İkinci tərəfi təsirli feillərlə ifadə olunan *mağazadan almaq, rayondan gətirmək, kənddən çıxarmaq, şəhərdən aparmaq* kimi birləşmələr də bu qrupa daxildir. Burada hərəkətin məkana münasibəti bir qədər zəifləyir və bu münasibətdə başqa bir obyektin iştirakı da təsəvvür edilir.

"Eldar: – Müalicə barədə bir şey öyrənə bildinizmi?

Cəfər: – Əlbəttə, *Bakıdan getmək*, orada müalicə almaq çətindir. Böyük bir institut var, lakin müalicənin qiyməti çox bahadır. Üç tam kurs keçmək lazımdır. Bütün müalicənin qiyməti qırx min dollara yaxındır" ["Məhkumların cənnəti"].

b) Birinci tərəf müəyyən hüdud, sərhəd mənasında məkan bildirir. Burada məkanın daxili sahəsi nəzərdən düşür, hərəkətin daxildən başlayaraq davam etməsi kölgədə qalır, məkanın xarici hüdudları əsas götürülür, məkan bir küll halında alınır və onda çox zəif olsa da, bir az obyektləşmə də hiss olunur.

"Sədr: – Amma *kənddən uzaqlaşarkən* düşünürsən ki, Əziz baba bağban döyül, necə deyərlər, çobandı..." ["Babamın babasının babası"].

"Nənə: – Bəs mən sənə neçə dəfə demişəm ki, *məktəbdən aralananda* onların yanına getmə. Onlar səni döyüb, hə?

Buta: – *Onlardan uzaqlaşmaq* çox çətin idi.

Nənə: – Kim sənin əl-ayağını bu günə qoyub?

Buta: – Heç kim. Ot kəsib.

Qadın: – Bax gör nəvən uşağımın başına nə oyun gətirib. *Məktəbdən aralandığı* üçün belə də olub... Nə üçün gizlənirsən? Bax gör uşağın qulağını nə günə qoymusan?

Nənə: Kəndin *düzlərindən ayrılaraq* bura niyə gəlmisiniz? Hələ cürət edib gəlmisiniz. Bir baxın uşaqlarınız nəvəmin başına nə oyun gətiriblər. [“Buta”]

Bu qrupa daxil olan birləşmələrin bir qismində birinci komponent çıxış istiqaməti, tərəf mənası da ifadə edir.

“Xəzridən əsən şiddətli külək Eldarın saçlarını dağıdırdı.

Cəfər: – Müalicə barədə bir şey öyrənə bildinmi? [“Məhkumların cənnəti”].

“Banut, mən eynən sən deyən kimi elədim. *Bağçadan əsən* külək səsimi eşitməyə imkan vermirdi. Özümü göstərdim, amma Şahzadəmiz məni eşitmədi. Mirzə Salmanla dövlət işləri...” [“Mahmud ilə Məryəm”].

c) Məkan əlaqəsində olan çıxışlıq hallı feili birləşmələrin bir qismində birinci tərəflər, əslində, məkan bildirməyən sözlərlə ifadə olunur. Kino dilində məkan mənası birləşmə daxilində meydana çıxır və ikinci tərəfin təsiri ilə daha da qüvvətlənir və birinci yerə keçir; buna görə də bütünlüklə birləşmə məkan əlaqəli birləşmə hesab olunur. Lakin obyekt əlaqəsi tamamilə silinmir və özünü hiss etdirir, beləliklə, bu tipli birləşmələrdə məkan əlaqəsi obyekt çalarlığı ilə meydana çıxır.

“Abbas: – Laqeyd insanlar bu nadir bitkini qırıb, onun əvəzini yandırmışlar. Ona görə də bu *ağacdan götürüb* çalaq etmək vacibdir.

Orxan: – Bitir.

Abbas: – De görüm, *sarağandan bitən* ağaclar harda əmələ gəlir?” [“Qırmızı bağ”].

“Kapitan: – Bax, burdan! Deməli, *pansionatdan qaçanda* oğru olduğunu bildilər. “Na çernıy” den beş-on manat pul yığmışdım ki, birdən lazım oldu. Baxma, bir də gördün ki, krizis-filan oldu, *hökümətdən düşəndə* bir pul alırıq...” [“Kapitanın xəzinəsi”].

“Qadın: – Bu bibərlər şirindir, ya acı?

Satıcı: – Şirindir bacım, şipşirin?

Qadın: – Bibərdən götürülüb turşu hazırlananda, qışda işimiz rahat olur” [“Yuxu”].

ç) Birinci tərəf hərəkət vasitəsi ilə keçilən sahəni, məkanı bildirir. Bu birləşmələrin ikinci tərəfi keçmək, ötmək, aşmaq kimi feillərlə ifadə olunur. Burada çıxışlıq mənası bir qədər zəifləyir; birinci tərəf hərəkətin başlanğıc yerini deyil, onun yayıldığı, baş verdiyi sahəni bildirir.

Nə vaxt ki gördüm səni o an düşündüm: *bu dərədən keçmək olmaz*. Sən göylərdə röya, şirin yuxusan. Nə vaxt ki gördüm səni o an anladım. Sən göylərdən yerə enmiş mələksən” [“Buta”].

“Müxbir: – Əziz babanın yapıncısı var?

Sədr: – Düzəltdirib. Amma yay *keçdikcə havalardan* məlum olar. Bu aylarda yapıncı bir az isti ola axı...” [“Babamın babasının babası”].

“Nəbi: – Arvad oğlu arvad. Hər *yoldan ötən* mənə nağıl danışır.

Koxa: – Nəçərnik, başına dönüm, neyniyə bilərdim....” [“Qaçaq Nəbi”].

Belə birləşmələrdə obyekt əlaqəsinin solğun izləri hiss olunur. Ona görə də bu mənada çıxışlıq hallı feili birləşmələrin paralel işlənməsi, bir-birini əvəz edə bilməsi də özünü göstərir.

“Tapdıq: – Düz deyirsən. Əlbəttə düz deyirsən. Amma kapitan, bu vaxtacan belə şey olmayıb axı?

Kapitan: – Nə olsun ki, olmayıb. İndi var! *Dərədən atlanmaq, təpəni aşmaq* mənə qismət olmayıb. Həm də məni başqa şey qorxudur. İnanmıram ki, oğru bir dəfəylə kifayətlənsin” [“Kapitanın xəzinəsi”].

Buradakı *dərədən atlanmaq* birləşməsi ilə *təpəni aşmaq* birləşməsi təxminən eyni məna əlaqəsinə əsaslanır. Buna görə də həmin cümlədəki birləşmələri forma cəhətdən bir-biri ilə əvəz edərək belə də işlətmək olar: O, həyatda heç bir çətinliklə döş-döşə gəlməmişdi, heç bir *dərəni atlanmaq, təpəni aşmaq* fikrinə düşməmişdi.

Yuxarıda “q” bəndində çıxışlıq hallı birləşmələrə aid verilmiş misalların çoxunu bu şəkildə təsirlik halını birləşmələrlə əvəz etmək mümkündür. Müqayisə et: *dağdan aşmaq – dağı aşmaq; çaylardan adlayıb – çayları adlayıb; divardan aşıb – divarı aşıb; otaqlardan keçib – otaqları keçib*.

d) Birinci tərəf hərəkətin müəyyən hissəsinə doğru istiqamətləndiyini bildirir. Bu birləşmələrin birinci tərəfləri, əsasən canlıların və bəzən də cansız əşyaların müxtəlif hissələrini ifadə edən *əl, qol, baş, ayaq, üz, döş, alın* və s. kimi isimlərlə, ikinci tərəfləri isə *tutmaq, çəkmək, öpmək, dəymək, dartmaq, vurmaq* və s. feillərlə ifadə olunur.

“Orxan: – Məni yenə internata göndərmək istəyirsiniz? Mən bir də ora qayıtmayacam!..

Abbas: – Gəl, gəl!.. *Əlindən tutub* aparacam. Sənin yerin internatdı!..” [“Qırmızı bağ”].

“Səlim bəy: – Evin yıxılsın a koxa! Adə, a sarsaq. Barı o biri tərəfini də özün qırxsaydın. *Əlindən tutacağına* güman etmirdim....” [“Qaçaq Nəbi”].

“Müxbir: – Yox əşi, nə isti, nə zad... Bir dəqiqəlik şeydi, yapıncını salacaq çiyninə, “çıqq” eliyəcəyik, qurtarıb gedəcək... Sizin *əllərinizdən, ayaqlarınızdan öpməyi...*” [“Babamın babasının babası”].

Bu qrupa daxil olan birləşmələrin əsas xüsusiyyətlərindən biri də birinci tərəflərin mənsubiyyət şəkilçili sözlərdən ibarət olmasıdır. Mənsubiyyət şəkilçiləri müəyyən əşyaların adlarını bildirən və öz-özlüyündə geniş məkan mənasına malik olmayan bu sözlərdə bütöv hissə münasibətləri yaradır. Həmin sözlərin çıxışlıq hallı birləşmələrdə məkan mənası verməsi də bununla əlaqədardır.

Bu birləşmələrin tərəfləri arasındakı məna əlaqəsinin özündə də spesifik xüsusiyyətlər vardır. Əvvəla, bunlar sırf məkan əlaqəsinə əsaslanmır, birləşmələrin komponentləri arasında obyekt əlaqəsi də nəzəri cəlb edəcək dərəcədə özünü göstərir. Digər tərəfdən burada çıxışlıq mənası bəzən tamamilə başqa mahiyyət daşıyır. Məsələn, *əlindən tutmaq, alnından öpmək* birləşmələrində *əlindən, alnından* sözləri heç də hərəkətin çıxış yerini bildirmir, bəlkə, hərəkətin təmas

etdiyi, yönəldiyi sahəni bildirir, ona görə də bəzən bunları başqa birləşmələrlə də əvəz etmək olur.

Yeri gəlmişkən demək lazımdır ki, kino dilində çıxışlıq hallı feili birləşmələr bəzən yerlik hallı feili birləşmələrə də meyl göstərir və həmin birləşmələrə məxsus məna çalarlığına malik olur, ona görə də bu vaxt çıxışlıq hallı feili birləşmələri yerlik hallı birləşmələrə çevirmək mümkün olur. Bu zaman çıxışlıq hallı feili birləşmənin birinci tərəfi yerlik hala məxsus məkan mənası verir, hərəkətin fəaliyyət göstərdiyi yeri göstərir.

"Orxan: – Sən əzrayılsan. *Dərədən axan* qorxulu çaya bənzəyirsən. Vəfanın ölümünə də sən bais oldun. Mən bunu hamıya deyəcəyəm. Sən öldürdün. Vəfanı!.." ["Qırmızı bağ"].

"Kapitan: – Mən də səhər gedirəm işə, axşam qayıdıram. Qonşulardan başqa heç kimi tanımıram. *Çaydan balıq tutmaq* istəyən adamlara bənzəyirəm..." ["Kapitanın xəzinəsi"].

"Mahmud: – Məni ziyarət elədiyiniz üçün minnətdaram. *Bağdan axan* su qədər şəffaf həyat arzulayıram.

Füzuli: – Şahzadəmizin arzusu başımız üstündədir" ["Mahmud ilə Məryəm"].

Bu çıxışlıq hallı feili birləşmələri asanlıqla yerlik hallı feili birləşmələrlə əvəz etmək olar və verilmiş cümlələrdə heç bir ciddi məna dəyişikliyi hiss edilməz. Müqayisə et: *dərədən axan (çay) – dərədə axan (çay); çaydan (balıq) tutmaq – çayda (balıq) tutmaq; bağdan axan (su) – bağda axan (su); döşündən gül dərdiyimiz (yamaclar) – döşündə gül dərdiyimiz (yamaclar).*

Obyekt əlaqəsi. Çıxışlıq hal geniş mənada məkan bildirsə də və buna görə məkani hallardan hesab edilsə də, onun obyekt bildirmək xüsusiyyəti də vardır. N.K.Dmitriyev çıxışlıq halın bu xüsusiyyətindən bəhs edərkən yazır ki: "...o həm məkani, həm də qrammatik münasibətlər bildirir. Sonuncu, ehtimal ki, birincidən inkişaf etmişdir" [Дмитриев: 1962, s.369].

Çıxışlıq halın bu xüsusiyyəti çıxışlıq hallı feili birləşmədə geniş dairədə obyekt əlaqəsi yaranmasına əsas verir.

1) Birinci tərəf nitq obyektini, haqqında danışılan şəxs və əşyanı bildirir. Bu birləşmələrin ikinci tərəfləri, əsasən nitq feilləri ilə ifadə olunur.

"Füzuli: – *Hünərdən söz açan*, hər torpaqdan su çıxara biləcək. Hər ürəkdə məhəbbət ola bilər. Eşq hər könüldə var, amma onu tapıb, çıxardacaq insan lazımdır" ["Mahmud ilə Məryəm"].

"Kapitan: – *Mədəniyyətdən dəm vurub* danışırsan da... Mən istəyirəm ki, oğrunu tapmaqda mənə kömək eləyəsən.

Tapdıq: – Mən kiməm ki? Yaxşısı budur sən polisə xəbər edəsən" ["Kapitanın xəzinəsi"].

Bu birləşmələrdə çıxışlıq hal şəkilçisini çox vaxt *haqqında, barəsində* sözləri ilə də əvəz etmək olar. Müqayisə et: *hünərdən söz açan – hünər haqqında (barəsində) xəbər bilmək, ondan yazılan – onun haqqında (barəsində) yazılan.*

A.Həsənov belə obyektləri "mövzu obyekti" adlandırır. Bu halda o, daha geniş əhatə dairəsinə malik olub nitq feillərinin əhatəsindən kənara çıxır. Lakin onun verdiyi misallarda da nitq feilləri əsas yer tutur [Abdullayev, Seyidov, Həsənov: 2007, s.230]. Buna görə də belə birləşmələrin birinci tərəflərinin "nitq obyekti" və ya "mövzu obyekti" ifadəsində daha aydın görünür.

2) Birinci tərəf istinad olunan, müəyyən bir xüsusiyyətin əxz edildiyi obyekti bildirir; ikinci tərəflər müxtəlif semantik qruplara daxil olan *soruşmaq, tələb etmək, diləmək; istəmək, xahiş etmək, rica etmək, eşitmək, öyrənmək, əxz etmək, ibrət almaq, icazə almaq* kimi feillərlə ifadə olunur.

"Qadın: – Yox, yox, lazım deyil... İnandım! Şirindir. Çək beş kilo...

Satıcı: – *Ərinizdən icazə istəyərək* çəkə bilərəmmi?" ["Yuxu"].

"Nəbi: – Ha gözünə dönüm, dul arvadın oğlu!.. Parçala bu Tunc Vəlini görüm! Çox özündən deyir... Bax, elə ha!.. Elə ha!.. *Ondan soruşmadan..."* ["Qaçaq Nəbi"].

3) Birinci tərəf çıxış obyektini bildirir. İkinci tərəfləri, əsasən fiziki hərəkət bildirən feillərlə ifadə olunan bu birləşmələrin tərəflərinin münasibəti müxtəlif tipli "ayrılıq", "kənar edilmək", "məhrum etmək" və s. kimi məna əlaqələrinə əsaslanır.

a) İkinci tərəfi almaq, üzmək, qoparmaq kimi feillərlə ifadə olunur, birinci tərəf müəyyən əşyanın çıxdığı, ayrıldığı obyekti bildirir.

"Vəfa: – *Qonşudan aldığım* sənədlə səni aparmağa gəlmişəm. Bu gündən bizdə qalacaqsan" ["Qırmızı bağ"].

"Orxan: – *Ağacdan qopardığım* sapla yelləncəyi burdan asacağam.

Vəfa: – Ehtiyatlı ol! Yıxılarsan.

b) İkinci tərəf *azad etmək, azad olmaq, xilas etmək, xilas olmaq, qurtarmaq* və s. feillərlə ifadə olunur, birinci tərəf şəxs və ya əşyanın müəyyən bir əlamətdən, keyfiyyətdən, vəziyyətdən, şəraitdən azad olunduğu obyekti bildirir.

"Rüstəm: – Sən neyniyirsən, Fatma xala? *Qəfildən azad olmaq* üçün atamla həmişə mən danışıram. Yaxşı da Fatma xala.

Fatma: – Get ananı çağır.

Rüstəm: – Qoca kaftar" ["40-cı qapı"].

"Əfrayıl: – Srağa gün Ömərоğlu da hətərən-pətərən danışırdı. İsa təhlükədən *xilas etmək* üçün kolluğu oddayanda xəbər tutdu. Hirslənmək əvəzinə ağzından qaçırtdı ki, lazım gəlsə quşçuluğu ləğv eliyərəm" ["Qəfil yanğın"].

"Hərbi həkim: – Kəşfiyyatçılarımız onu *fəlakətdən qurtarmağa* çalışdılar, düşmən tərəfdən meşənin içindən tapıblar. Üzü, əlləri, ayaqları, bədəni, yanıb. Qapqara külə dönüb" ["Ümid"].

c) İkinci tərəf *qorumaq, mühafizə etmək, gizləmək, saxlamaq* feilləri ilə ifadə olunur, birinci tərəf təsir dairəsi məhdudlaşdırılan, təsirinin qarşısı alınan obyekti bildirir.

"Rövşən: – Sən kiri! *Güllədən qorunmaq üçün* çalışırıq...

Müəllim: – Sona! Sona! Tez bura gəl!" ["Girov"].

"Vahid: – Qulaq as, bir təzə qəzəl yazmışam. Düzdür, *oxuculardan gizlətməyə* çalışıram, amma oxuyacağam sənincün. Burda bir yenilik etmişəm. Bilirsən ki, məni günahlandırırlar" ["Qəzəlxan"].

"Direktor: – Yox, *səndən gizli saxlamaq* istəyirlər, ölməyib. Ölsəydi, biz bilərdik.

Qurban: – Bəlkə... ["Pəncərə"].

ç) İkinci tərəf *qaçmaq, ayrılmaq, uzaqlaşmaq* kimi feillərlə ifadə olunur, birinci tərəf müəyyən şəxs və əşyaların kənar olduğu, uzaqlaşdığı obyekti bildirir. Burda birinci tərəfin çıxış obyekti olmaq mənası zəifləyir.

"Prokuror: – Oturun, oturun, dədə balası, oturun, heç nə yoxdu. *Məndən qaçmasına* fikir verməyin. Atanızı hardan olsa bu dəqiqə tapacağıq". ["Dolu"].

4) Birinci tərəf müəyyən hissi hallarla, fiziki proseslərlə əlaqədar olan obyekti bildirir və bu obyekt səbəb çalarlığına malik olur. İkinci tərəflərin ifadə olunduğu feillərin mənaları burada əsas rol oynayır və tərəflər arasındakı məna əlaqələrinə təsir göstərir.

a) İkinci tərəf sevinc, təəccüb, heyrət, şadlıq bildirən, sevinmək, nəşələnmək, xoşlanmaq, şadlanmaq, heyran olmaq və bu kimi feillərlə ifadə olunur, birinci tərəf həmin mənalarla bağlı olan obyekti bildirir.

"Nübar: – Boyuna qurban oğlum, axırı ki, doxtur oldun!

Qasım: – Feldşer.

Nübar: – Nə olar, a bala? *Adamların sözlərindən xoşlanan* kimi oxudum. Malların dərdinə əncam eləmək savab işdi. Dilsiz-ağılsız heyvandılar" ["Kişi sözü"].

"Molla: – Sən burada nə edirsən?

Rövşən: – Məscidin keşiyini çəkirəm.

Molla: – *Vəhşilikdən feyz alan* adam kimi danışırsan. Allahın evinin keşiyini çəkməyə ehtiyac yoxdur" ["Girov"].

b) Yuxarıdakıların əksinə olaraq ikinci tərəf *kədər, inciklik, əsəbilik* kimi mənalar verən acıqlanmaq, kədərlənmək, incimək, hirslənmək, əsəbiləşmək və s. feillərlə ifadə olunur, birinci tərəf həmin mənalarla bağlı obyektləri bildirir.

"Ömərоğlu: – Gördün? *Gah məndən inciyən*, gah da əsəblərlə oynayan... Elə bircə bu kolluq olsun. Dərə xəlvət, tülkü bəylikdi. Nə qədər toyuq-cücə saxladığımı, neylədiyimizi bilən yox idi" ["Qəfil yanğın"].

c) İkinci tərəf müxtəlif qruplara daxil olan *qorxmaq, utanmaq, iyrənmək, yorulmaq, təngə gəlmək* və s. feillərlə ifadə olunur, birinci tərəf bu mənalarla bağlı obyekti bildirir.

"Hərbi həkim: Müxtəlif dərəcəli yanıqlardır. Bilmirəm *yanıqdan qorxan* bu adama işgəncə veriblər, ya minaya düşüb. Nə adı bəllidir, nə kimliyi". ["Ümid"].

"Rüstəm: – ....*Gülüşündən utanmayan* adam kimidir. Ana, Moskvadan, atam zəng eləyib. Tez ol da ana, tez ol!

Leyla: – Eldar? Bəli, mənəm, xanımdır. Leyla. Bilirəm, hə... necə? Kim, kim?" ["Sağınçı"].

5) Birinci tərəf mənbə, maddi əsas obyektini bildirir, ikinci tərəflər düzəltmək, qayırmaq, tikmək, toxumaq, qurmaq və s. kimi feillərlə ifadə olunur.

"Qadın: – Bu nə işdi bizim başımıza gəldi? İndi mən bu *yeniyetmələrdən hazırlanmış* uşaqlarla çölün düzündə neyniyərəm?

Prokuror: – İki qoyun kəsdir, bir yaxşı da bazarlıq elə. Yox, Bakıya göndərmirəm. Müəllimin evinə aparacağıq" ["Dolu"].

"Direktor: Yoox... Evlənməyib. Elə alkoqolikin yadına *ağ ipəkdən tikilmiş* paltarı olan qadın düşər. Bir də, axı, hansı qadın gedər ona? Görəsən harda veyllənir..." ["Pəncərə"].

"Vahid: – Gördün? Könül-ürək qırmızı, milli-həmrə qırmızı, xurşid-günəş ləb qırmızı, badə qırmızı, *qızıldan düzəlmiş* badə qırmızı, mina qırmızı..." ["Qəzəlxan"].

6) Birinci tərəf mümkün olan müxtəlif obyektlərdən bir hissəsinin və ya tamın müəyyən qisminin hərəkətə münasibətini bildirən, hərəkətin təsirinə məruz qaldığını bildirən obyektdən ibarət olur. A.N.Kononov yazır ki, əsas və təsirlik hallar tamı bütünlüklə, çıxışlıq hal isə tamı qismən (tamın hissəsini) ifadə edir. O, özbək dilindən buna aid gətirdiyi misalları belə mənalandırır: "*olma(ni) edi "o, almanın hamısını yedi", olmadan edi "o, almanın bir hissəsini yedi", çoy(ni) içdi "o, çayı tamamilə içdi", çoydan içdi "o, çayın bir hissəsini içdi*" [4, 96]. A.N.Kononov burada "əsas hal" deyərkən bizim qeyri-müəyyən təsirlik hal hesab etdiyimiz sözləri nəzərdə tutur.

7) Birinci tərəf müəyyən hal və hərəkətin, hadisənin baş verməsində istifadə olunan obyekti, hərəkətin nəyin vasitəsi və köməyi ilə əmələ gəldiyini bildirir; buna vasitə obyekti də demək olar.

"Nənə: – Hərəni *yerişindən tanımaq* mümkündür. Hamı "xalça" toxuyur. Hərənin öz xalçası var. Ömür xalçası. Lap bizim bu xalça kimi. Bir vaxt sən də qocalacaqsan" ["Buta"].

"Leyla: – Kitaba görə sağ olun. Amma bir də bura gəlmə. Lazım deyil. Biz başa düşməliyik ki...

Eldar: – Kiçini *papağından tanımaq* lazımdır.... Mənim qeyrətim var. Sən heç nəyi başa düşmürsən. Mən hər şeyi öyrənmişəm. Sənin xəstəliyinin inkişafını saxlamaq mümkündür" ["Məhkumların cənnəti"].

Vasitə obyektləri *bənzəmək, oxşamaq* kimi müqayisə bildirən feillərlə işlənərkən müqayisə vasitəsi də ola bilir. Kino dilində belə birləşmələrdə, bir qayda olaraq, yönlük haldakı söz də iştirak edir.

"Nəbi: – Sabahın xeyir həkim başı! *Gözlərindən qardaşına oxşayan* bu uşaq dinc durmur. (Həcərə pıçıldayır). Aaz, məni biabır eləmə, bunlarda zənən əlini öpmək haram sayılır". Bizim yaralılar necədir həkim başı?" ["Qaçaq Nəbi"].

"Müxbir: – Bığ-saqqal da ki, hansı millətin qocasında deyirsən var. Sağlığına bu dəqiqə *saçlarından babasına bənzəyən* cavanlar da...Yaxşı, indi bu yapon yazıq hardan bilsin ki, bu Əziz baba azərbaycanlıdı, ya mən nə bilim nədi?"["Babamın babasının babası"].

8) Birinci tərəf prosesin hansı qiymət, hansı dəyər müqabilində başa gəldiyini göstərən obyekti bildirir. Bu məna əlaqəsində olan birləşmələrdə, bir qayda olaraq, birinci tərəf kəmiyyət təyinlərinə malik olur. Belə birləşmələrin ikinci tərəfi daha çox *almaq, satmaq, vermək* kimi feillərlə ifadə olunur.

"Abbas: – Nədi, yoxsa, uşaqlığın yadına düşüb? Özünə yelləncək asmısan? *On manatdan almaq* xoşuna gəldimi? İndi mən səni göylərə uçurdacam" ["Qırmızı bağ"].

Yönlük hallı birləşmələrdə də bu məna əlaqəsi vardır; məs.: *on manata satmaq, baha qiymətə almaq, on qəpiyə vermək* və s. Zahirən belə görünə bilər ki, bu mənada çıxışlıq hallı birləşmələrlə yönlük hallı birləşmələr çox yaxınlaşır və onları bir-biri ilə əvəz etmək də mümkündür. Əslində isə bunlar arasında ciddi məna fərqi vardır. Çıxışlıq hallı birləşmələrdə birinci tərəf dəyər obyektini bildirməklə yanaşı obyektlərin çoxluğuna, hərəkətin təkrarına da işarə edir, yönlük hallı feili birləşmələrdə isə bu çalarlıq yoxdur. Müqayisə et: *on manatdan satmaq – on manata satmaq; baha qiymətdən almaq – baha qiymətə almaq, on qəpiyə vermək – on qəpikdən vermək*.

Bu mənada kino dilində olan yönlük hallı feili birləşmələrdə, çıxışlıq hallı feili birləşmələrdən fərqli olaraq, dəyər, qiymət obyekti bildirən birinci tərəf başqa bir əşya qarşısında müqabil tərəf kimi dayanan, onunla əvəz edilən obyekti də bildirir.

3. Səbəb əlaqəsi. Bu birləşmələrin birinci tərəfləri, əsasən mücərrəd mənalı isimlərlə və məsdərlə, ikinci tərəflər isə müxtəlif mənalı feillərlə ifadə olunur.

"Leyla: – Yox, bu barədə danışma Mənim anamın o qədər pulu yoxdur. Dayımda da yoxdur. Əgər onlar bilsə ki, məni müalicə etmək mümkündür, hər şeylərini satacaqlar ki, məni xilas etsinlər. *Acından ölməkdən* mən ölsəm daha yaxşıdır" ["Məhkumların cənnəti"].

4. Zaman əlaqəsi. Bu məna əlaqəsində olan çıxışlıq hallı feili birləşmələrin birinci tərəfləri hərəkətin başlanğıc zamanını bildirir, onun sonrakı davamı və bitib-bitməməsi haqqında konkret məlumat vermir; ona görə də bu birləşmələrdə, adətən, hərəkətin müəyyən dövrdən başlanaraq hələ də davam etməsi xüsusiyyəti əsas yer tutur.

"Müxbir: – Bax, görürsən, cavab verə bilmirsən. Amma Əziz babanın o şəkildə yapıncısı olsa, yapon neyniyəcək? Onda *ötən illərdən kifləmiş* paltarları da tullanacaq. Görən kimi o dəqiqə, barmağın dişləyəcək, deyəcək, aha, Qafqaz!.." ["Babamın babasının babası"].

"Abbas: – Çox qəribə, *dünəndən qalan* suallar verir... İki gün bundan qabaq məni məktəbin dəhlizində saxlayıb soruşdu ki, "müəllim, arılar şirə yığıb qayıdanda öz yuvalarını necə tapırlar?" ["Qırmızı bağ"].

"Əziz baba: – Əlbəttə, əlbəttə. Yapıncısız çobanın nə ləzzəti? Qaldı ki, bu isti-misti boş şeydi! *Payızdan əkilmiş* bitkilər hələ də bitməyib" ["Babamın babasının babası"].

"Qəssab: – İt uşağı it! Rədd olun burdan! Çıxıb bu saat sizi toğlu kimi soyaram ikinizi də. *Yayın axır ayında* görünərsiniz" ["Yuxu"]

Buraya qədər deyilənlər bir daha göstərir ki, bu feili birləşmələrin hər növünün özünəməxsus xüsusiyyətləri vardır. Onlar həm forma, həm də məna əlaqələrinə görə bir-birindən fərqlənirlər. Bununla yanaşı, həmin növlərdən bəhs edərkən feili birləşmələrin ayrı-ayrı növləri arasında keçid halları, paralelizm xüsusiyyətləri də vardır. Həmin xüsusiyyətlərin meydana çıxmasında birləşmələrin hər iki tərəfindəki sözlərin rolu vardır: bu keçid halları birləşmələrin komponentlərinin qarşılıqlı əlaqəsindən meydana çıxır. Lakin burada birləşmələrin birinci tərəfinin xüsusi rolu diqqəti daha çox cəlb edir.

ƏDƏBİYYAT

1. Дмитриев Н.К. Грамматика башкирского языка. Москва. 1960.
2. Дмитриев Н.К. Строй тюркских языков. Москва. 1962.
3. Abdullayev Ə., Seyidov Y., Həsənov A. "Müasir Azərbaycan dili. Sintaksis". I kitab. Bakı. 2007
4. Кононов А.Н. Грамматика современного узбекского литературного языка. Москва. 1972. стр. 96.

BƏDİİ FİLMLƏR

1. "Yuxu". 2001.
2. "Kapitanın xəzinəsi". 2013.
3. "Buta". 2004.
4. "Məhkumların cənnəti". 2012.
5. "Mahmud ilə Məryəm". 2011.
6. "Qaçaq Nəbi" . 1980.
7. "Qırmızı bağ". 2011.
8. "Babamın babasının babası". 1979.
9. "40-cı qapı". 2009.
10. "Qəfil yanğın". 1979.
11. "Ümid". 1995.
12. "Girov". 2003.
13. "Qəzəlxan". 1991.
14. "Pəncərə". 1988.
15. "Dolu". 2012.
16. "Sağınçı". 1978.
17. "Od arasında vahə" 1977.
18. "Süd dişinin ağrısı". 1987.
19. "Kişi sözü". 1980.

ABOUT CONJUGATİON OF VERBS İN THE LANGUAGE OF CİNEMA

SUMMARY

The article is devoted to the conjugation of verbs in the language of cinema. This type of verb conjugation, which carries the verb form of the verb, has its own characteristics. Both the formal difference and the general difference between the meanings of these components from other verbal structures are associated with its first side.

According to research, the second side of verb conjugation is also expressed in very different verb groups. The fact that the verb is effective and ineffective, its dynamic and static properties, and the fact that it falls under one or another type of meaning, do not limit its ability to be the second component of these compounds.

The article uses a lot of literature and films.

Key words: *speech, verb combinations, type of verb, case system, first person, second person*

О СПРЯЖЕНИЯХ ГЛАГОЛОВ В ЯЗЫКЕ КИНО

РЕЗЮМЕ

Статья посвящена спряжениям глаголов в языке кино. Этот тип спряжения глаголов, который несет глагольную форму глагола, имеет свои особенности. И формальное отличие, и общее отличие значений этих составных от других словесных составов связано с его первой стороной.

Согласно исследованиям, вторая сторона спряжения глаголов также выражается очень разными группами глаголов. Тот факт, что глагол эффективен и неэффективен, его динамические и статические свойства, а также тот факт, что он подпадает под тот или иной тип значения, не ограничивают его возможность быть вторым компонентом этих соединений.

В статье используется много литературы и фильмов.

Ключевые слова: *речь, глагольные комбинации, тип глагола, падежная система, первое лицо, второе лицо*